Azərbaycan Respublikasının Prezidenti
yanında Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

Azərbaycan Tarixçiləri
İctimai Birliyi



İrəvan
XANLIĞI



# İrəvan xanlığının əhalisi

Azərbaycan Milli Elmlər Akademiyası
Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur

Layihə rəhbəri,
Ön sözün müəllifi və
elmi redaktor: **Yaqub Mahmudov**
*AMEA-nın həqiqi üzvü,*
*Əməkdar elm xadimi,*
*Dövlət Mükafatı Laureatı*

Rəyçi : **Güntəkin Nəcəfli**
*tarix üzrə fəlsəfə doktoru*

Texniki redaktor: **Mehri Xanbabayeva**
*riyaziyyat üzrə fəlsəfə doktoru*

**İradə Məmmədova**
***İrəvan xanlığının əhalisi.*** Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2017. - 56 s.

ISBN 978-9952-8268-2-1

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2017

Azərbaycan
Respublikasının
Prezidenti

**İLHAM ƏLİYEVİN**

təşəbbüsü
ilə yazılmışdır.

Bilirsiniz ki,
alimlərimiz mənim təşəbbüsümlə
İrəvan xanlığı haqqında böyük
elmi əsər yaratmışlar. Bunun çox böyük
əhəmiyyəti vardır. Ancaq bu əsər daha çox
faktoloji və elmi məsələləri əks etdirir.
Hesab edirəm ki, daha geniş
auditoriyaya çatdırmaq üçün
kiçik həcmli broşürlər də buraxılmalıdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Azərbaycanın diplomatik xidmət*
*orqanları rəhbərlərinin beşinci*
*müşavirəsindəki nitqindən.*
*7 iyul 2014-cü il*



# Oxuculara

İndiki Ermənistan Respublikasının yerləşdiyi ərazi hürri, hett, kimmer, skif, sakların yaşadığı, "Kitabi-Dədə Qorqud" boylarının yarandığı və dastanda təsvir olunan bir çox mühüm tarixi hadisə və proseslərin cərəyan etdiyi, Çuxursəd əmirliyinin təşəkkül tapdığı, Çuxursəd bəylərbəyiliyinin mövcud olduğu, yaxın keçmişdə–XIX əsrin əvvəllərində Azərbaycan dövləti olan İrəvan xanlığının əhatə etdiyi torpaqlardır. Bu torpaqların ən qədim yerli əhalisi–aborigenləri Azərbaycan türkləri idi. Lakin Böyük güc mərkəzlərinin siyasəti nəticəsində 1918-ci ildə İrəvan şəhəri ermənilərə güzəşt edildi. Beləliklə, Cənubi Qafqazda tarixdə ilk dəfə olaraq erməni dövləti yaradıldı.

İlk mənbələr təsdiq edir ki, ayrı-ayrı imperiyaların hökmranlıq dövrləri istisna edilməklə, müasir Ermənistan Respublikasının ərazisi ən qədim zamanlardan başlayaraq həmişə Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Bu ərazi sonrakı tarixi dövrlərdə də Azərbaycan sülalələri olan Sacilər, Salarilər, Şəddadilər, Eldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və Əfşarların idarə etdikləri Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Orta əsrlərdə Azərbaycan hakimləri olan Çuxursəd əmirləri və İrəvan xanlarının idarə etdikləri bu torpaqlar, həm də, Azərbaycan-türk tayfalarının elliklə və ən sıx şəkildə yaşadığı regionlardan biri idi.

Bunu dövrün ilk qaynaqları, səyyahların verdiyi məlumatlar bir daha təsdiq edir. XVII əsrin 70-ci illərində Azər-





baycanın İrəvan bölgəsinə, o cümlədən İrəvan şəhərinə səyahət etmiş türk səyyahı Evliya Çələbi "Səyahətnamə"sində və fransız səyyahı Jan Şarden "Parisdən İsfahana səyahət" əsərində bu tarpaqların əhalisinin mütləq əksəriyyətinin Azərbaycan türkləri olduğunu qeyd etmişlər. Bundan başqa, 1700-ci ilin yayında İrəvanda olmuş alman səyyahı Kaspar Şillinger də 1716-cı ildə Nürnberqdə çap olunan "İrana və Şərqi Hindistana səyahət" əsərində İrəvan şəhərində say və siyasi baxımdan Azərbaycan türklərinin tam olaraq üstünlük təşkil etdiyi haqda məlumat verir.

XVIII əsrin əvvəlində İrəvanda olmuş missioner Monye, həmçinin eyni yüzillikdə İrəvana səfər etmiş Mami-Klerakın "ermənilər İrəvan şəhəri əhalisinin 1/4-ni, azərbaycanlılar isə böyük əksəriyyətini təşkil edirdilər" yazmaları da İrəvan əhalisinin böyük əksəriyyətinin Azərbaycan türklərindən ibarət olduğunun sübut edir. XVIII-XIX əsrlərdə Cənubi Qafqaza səyahət etmiş bir çox səyyahlar (İ.Gildenştedt, K.German, Q.Druvil) və tədqiqatçılar (N.Dubrovin, V.Jelixovskaya) öz əsərlərində İrəvan xanlığında yaşayan əhalinin çoxunun tatarlardan (Azərbaycan türkləri - red.) ibarət olduğunu yazmışdır.

İlk mənbələr, o cümlədən erməni mənbələri təsdiq edir ki, İrəvan şəhərində oturaq erməni əhalisi yaşamamışdır. Məsələn, İsrail Ori rus qoşunlarını Cənubi Qafqaza yürüşə cəlb etmək və Azərbaycan torpaqlarının işğalına həvəsləndirmək üçün I Pyotra 1701-ci il 25 iyul tarixində "Yaddaş qeydləri" adlanan 18 bənddən ibarət layihə təqdim etmişdi. Layihənin 7-ci bəndində Rusiya imperatoruna İrəvan şəhəri



haqqında kəşfiyyat xarakterli məlumatlar çatdırılır və göstərilirdi ki, İrəvan şəhərində cəmi **300** nəfərdən bir az artıq er-məni yaşayır və onlar da ticarətlə məşğul olurlar. Bu faktı erməni tarixçiləri də təsdiq edirlər. Erməni tarixçisi Yervand Şahəziz 1931-ci ildə İrəvanda çap etdirdiyi "Qədim İrəvan" (erməni dilində) kitabında 1673-cü ildə İrəvanda olan fransız səyyahı Şardenin İrəvan qalasında yaşayan əhali haqqında məlumatını bir daha təsdiq edir və daha maraqlı bir məqama toxunur. O yazır ki, ermənilərin orada (İrəvan şəhərində - red.) yalnız dükanları var idi, onlar orada gündüzlər alver edir, axşamlar isə dükanlarını bağlayıb evlərinə gedirdilər.

**"İrəvan xanlığının əhalisi"** adlanan bu kitabçada oxuculara Azərbaycan dövləti olan İrəvan xanlığının əhalisinin etnik və dini mənsubiyyəti, məşğuliyyəti, xanların əhali siyasəti təqdim edilmişdir. Kitabçadakı təkzibedilməz ilkin qaynaqlara əsaslanan yer və tayfa adlarını, əhalinin say dinamikasını əks etdirən qiymətli cədvəllər İrəvan bölgəsində əhalinin mütləq əksəriyyətinin Azərbaycan türkləri olduğunu bir daha sübut edir.

**Yaqub Mahmudov**
*AMEA-nın həqiqi üzvü,*
*Əməkdar elm xadimi,*
*Dövlət Mükafatı laureatı*





## İrəvan xanlığının əhalisi

Sovetlər İttifaqı yaradılandan sonra rəhbər vəzifələrdə gen-bol təmsil olunan soydaşlarına arxalanan erməni alimləri Azərbaycanın əzəli torpaqlarında yerləşən İrəvan xanlığının Azərbaycan türklərinə aid olmadığını ciddi-cəhdlə sübut etməyə çalışmışlar və çalışmaqdadırlar. Lakin səyyahların məlumatlarına, qaynaqlara və arxiv mənbələrinə nəzər saldıqda bu iddiaların əsassız olduğunu aşkar görmək olar.

## Səyyahlar İrəvan xanlığının əhalisi haqqında

1647-ci ildə İrəvanda olmuş Evliya Çələbi "şəhər içərisində təqribən 2600 evin" olduğunu bildirirdi[1]. Fransız səyyahı Şarden 1673-cü ildə İrəvanda olarkən İrəvan qalasında təxminən səkkiz yüz evin olduğunu və orada ancaq əsil Səfəvilərin yaşadıqlarını yazırdı[2].

Y.Şahəziz "Qədim İrəvan" əsərində Şardenin İrəvan qalasında yaşayan əhali haqqında verdiyi məlumatları təsdiq edərək yazırdı: "Ermənilərin orada (İrəvan şəhərində – İ.M.) sadəcə dükanları var, onlar gündüzlər alış-veriş

---

[1] Evliya Çələbi. Səyahatnamə (Azərbaycan tarixinə aid seçmələr). Türk dilindən işləyəni və şərhlərin müəllifi tarix elmləri doktoru, professor Seyidağa Onullahi. Bakı, 1997, s. 54.

[2] Jean Chardin, Voyages du Chevalier Chardin en Perse, et autres lieuh de l'Orient. vol. II. Amsterdam, 1735, Le Normont, İmprimeur-Libraire, Paris, 1811; Şarden İ. Səyahətnamə (fransız dilindən tərcümə edən V. Aslanov). Bakı, 1994, s. 21, 23.



edirlər, axşamlar isə dükanlarını bağlayıb evlərinə gedirlər”[1].

1700-ci ilin yayında İrəvanda olmuş alman səyyah Frans Kaspar Şillinger yazırdı: “İrəvan şəhərinin daxilində yalnız iranlılar (Azərbaycan türkləri –İ.M.) şəhərin nisbətən böyük qəsəbəsində (yəqin ki, Üçkilsə – İ.M.) və müxtəlif yerlərdə kilsəyə xidmət üçün erməni tacir və sənətkarlar yaşayırdı. Onlar iranlılara vergi verirlər”[2].

1724-cü ildə İrəvana səfər etmiş L.A.Mami-Klerakın “ermənilər o zaman İrəvan şəhəri əhalisinin 1/4-ni təşkil edirdi”[3] yazması İrəvan şəhərinin əhalisinin böyük əksəriyyətinin Azərbaycan türklərindən ibarət olduğu deməyə əsas verir. 1701-ci il 25 iyul tarixli “Yaddaş qeydləri”ndə İrəvan şəhərində cəmi 300 nəfərdən bir az artıq erməni yaşadığını və onların da ticarət ilə məşğul olduqlarını bildirilirdi[4].

---

[1] Երվանդ Շահազիզ: Հին Երեվանը: Երեվան, 1931: (Yervand Şahəziz. Qədim İrəvan. İrəvan, 1931), s. 34; Həsənov S. Erməni mənbələri qədim İrəvanın tarixi haqqında // YOM. Türk dünyası mədəniyyət dərgisi. Bakı, 2007, № 5, s. 5-6; bax: İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2009, s. 79.

[2] Frantz Caspar Schillinger, Persianische und Ost-Indianische Reise, welche Frantz Caspar Schillinger mit P. Wilhelm Weber und P. Wilhelm Mayr durch das Türckische Gebiet im Jahr 1699 angefangen und 1702 vollendet, Nürnberg, 1716, s. 118.

[3] Louis-André de La Mamie de Clairac, Histoire de Perse, depuis le commencement de ce Sincle. t. II, Chez Charles-Antoine Jombert, libraire, Paris MDCCL (1750), s. 153-154.

[4] Армяно-русские отношения в первой трети XVIII века. т.II, ч. I, Ереван, 1964, док. № 85, с.213; Nəcəfli G. XVIII əsrdə Azərbaycan torpaqlarında erməni dövləti yaradılması cəhdləri. Bakı, 2007, s. 31.





Səyyah **İohan Gildenştedt** Pəmbəyi tatar dairəsi adlandırır, əhalisinin tərəkəmə tatarlarından (Azərbaycan türklərindən – İ.M.) ibarət olduğunu, aralarında ermənіyə də rast gəlindiyini, lakin buraya daxil olan kəndlərin adını bilmədiyini yazırdı. Səyyah əsərində yanlış olaraq İrəvanı İranın bir dairəsi (1770-1773-cü illərdə İrəvan müstəqil xanlıq idi) adlandırır. İrəvan dairəsinin əhalisi tərəkəmə tatarlarından ibarət idi və Göyçə gölü burada yerləşirdi. Ayrımlı dairəsi cənub-qərb istiqamətində Somxetiya ilə sərhəd idi, əhalisi isə tərəkəmə tatarlarından ibarət idi[1].

**K.Germana** görə İrəvan və Qarsda əhali türk dilində və yaxud tatar dilinin türk dialektində danışırdı, İrəvan, Ayrımlı, Pəmbək dairəsinin əhalisi tərəkəmə tatarlarından ibarət idi[2].

1813-cü ildə İrəvanda olmuş İngilis diplomatı **Ceyms Morye** İrəvan xanlığının əhalisinin 100 min nəfərdən ibarət olduğunu, bunun 25 mininin yaylaq-qışlaq (yaylaq-aran) işi ilə məşğul olduğunu qeyd edir[3].

---

[1] Гильденштедт И.А. Путешествие по Кавказу в 1770-1773 гг. СПб.,2002, s. 169-171.

[2] Географическое и статистическое описание Грузии и Кавказа (из путешествия чрез Россию и по Кавказским горам, в 1770, 71, 72, 73 годах). СПб., 1809, s. 242-244; İrade Memmedova. Kafkasya'nın türk halkları ve vilayetleri K.German'ın tasvirinde (1770 – 1773'lü yıllar) // Yeni Türkiye, Cilt:73, Kafkaslar özel sayısı – III, Ankara, Temmuz-Aralık 2015, s. 106.

[3] Morier J. Second voyage en Perse, en Arménie et dans L'Asie-Mineure, fait de 1810 à 1816, tome second, Paris, 1818, s. 256.



Fransız səyyahı **Druvil** eyni adlı göldən axan kiçik Zəngi çayının sahilində yerləşən İrəvanı böyük şəhər adlandırır, buranın uzun müddət Türkiyə və İran arasında mübahisə obyekti olduğunu, birindən-digərinin əlinə keçdiyini, Druvilin zamanında İranın (Qacarlar İranı nəzərdə tutulur - İ.M.) əlində olduğunu və onun bəylərbəyi adlanan xan tərəfindən idarə edildiyini, qalada 60 top, 3 nizami tabor və süvari artilleriya bölüyünün yarısının yerləşdiyini yazırdı. Druvilin İrəvan şəhərini yanlış olaraq Qacarlar İranının tərkibində (Druvil İrəvanda olan zaman müstəqil İrəvan xanlığında Hüseynqulu xan hakimiyyətdə idi– İ.M.) olduğunu yazmasına baxmayaraq, onun şəhər haqqında verdiyi məlumatlar, buranın xan tərəfindən idarə olunması şəhərin ermənilərə deyil, Azərbaycan türklərinə məxsus olmasını bir daha təsdiq edir[1].

**N.Dubrovin** yazırdı: "Azərbaycanın bütün xanlıqlarında tatarlar əhalinin əksəriyyətini təşkil edirdi, ermənilər isə, o da yalnız indi (XIX əsrin 70-ci illərində – İ.M.) keçmiş "Erməni vilayəti"ndə çoxluqda idi"[2]. İrəvan əyalətində tatar, kürd, yezid tayfaları və az sayda qaraçılar yaşayırdı, tatar-

---

[1] Voyage en Perse fait en 1812 et 1813. Par Gaspard Drouville, Colonel de cavalerie au service de S. M. L'Empereur de toutes les Russies, Chevalier de plusieurs ordres. Librairie Nationale et Etrangere, Paris, 1825; Друвиль Г. Путешествие в Персию в 1812 и 1815 годах. ч.II. (Географическое описание). Москва, 1826, с.8.

[2] Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. т.I, (кн.II-III), СПб., 1871, с. 328.





lar oturaq və tərəkəmə həyat tərzi sürür, tərəkəmələr əksəriyyət təşkil edirdilər[1].

**V.Jelixovskaya** Göyçə gölünün şimal-şərq sahilində demək olar ki, oturaq əhalinin olmadığını, burada öz mal-qaraları ilə birlikdə tərəkəmə tatarlarının yaşadığını, İran sərhəddindən isə qaraçı və kürdlərin buraya gəldiklərini yazırdı. O, İrəvanı görünüşünə görə tamamilə tatar (Azərbaycan – İ.M.) şəhəri adlandırırdı[2].



***Şəkil 1.*** *Ağrıdağ*

[1] Дубровин. История войны..., с. 328.

[2] Желиховская Вера, Кавказ и Закавказье (с рисунками и картою Кавказа), Санкт-Петербург, 1885, s. 26-28.



## İrəvan xanlığının etnik, konfessional, sosiyal və say tərkibi

1728-ci ildə[1] İrəvan əyalətində yaşayan **71583** nəfərdən **43784** nəfəri **(61,2%)** türk-müsəlman, **27799** nəfəri **(38,8%)** isə xristian olmuşdur. Ancaq osmanlıların İrəvan əyalətinə hücumu zamanı onların əsas hədəfi şiələr olduğu üçün qətlə yetirilənlərin çoxusu da müsəlmanlar idilər. Digər tərəfdən İrəvan əyalətindəki türk-müsəlman əhalisinin etnik tərkibdə olan nisbətini - **61,2%**-i minimum kimi qəbul etmək lazımdır. Bu dövrdə İrəvan şəhərinin əhalisinin etnik tərkibi **428** evli türk-müsəlman, **224** evli və **9** subay xristiandan[2] ibarət idi. İrəvan şəhərində yaşayan **3369** nəfərin **63,5%**-inin türk-müsəlman, **36,5%**-inin isə xristian olması və şəhərdə **500** nəfər xristian qaraçının yaşaması (şəhər əhalisinin təqribən **14,9%**-i) erməni salnamə müəlliflərinin iddia etdiyi kimi ermənilərin İrəvan şəhərində əksəriyyət təşkil etməsinin deyil, daha az sayda olmalarının **(21,6%)** sübutu-

[1] BOA, TTD, No. 901, Revan livasının nüfus ve hasılatını mübeyyin mufassal defter, v. 1-585; İrəvan əyalətinin icmal dəftəri (Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Bünyadov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı)), Bakı, 1996, s. 18.

[2] Fərəh Hüseyn 4 məhəllədən ibarət Rəvan şəhərində ümumilikdə 428 müsəlman, 244 gebran vergi ödəyənin olduğunu yazır. (Fərəh Hüseyn. İrəvan şəhərinin təsviri Osmanlı mənbələrində // Sivilizasiya, elmi-nəzəri jurnal, Bakı Avrasiya Universiteti, 4-cü (28-30) buraxılış, Bakı, 2016, s. 36).





dur. İrəvan əyaləti üzrə **15095** kişidən[1] **14122**-si **(93,5%)** evli, **973**-ü **(6,5%)** isə subay olmuşdur[2].

1728-ci ildə İrəvan əyalətində abad olan kəndlərin sayı **1172**, heç kimin yaşamadığı kəndlərin sayı **307**, Zarzəmin nahiyəsi kəndlərinin sayı **172** olmuşdur[3]. 1728-ci il İrəvan əyalətinin "İcmal dəftər"ində hər bir nahiyəyə aid olan kənd, qışlaq, məzrəə adları burada yaşayanların Azərbaycan türkləri olduğunu bir daha təsdiqləyir[4]:

***Cədvəl 1.***

***1728-ci il İrəvan əyalətinin İcmal dəftərinə görə kənd, qışlaq və mərzəə adları***

| | | | | |
|---|---|---|---|---|
| Acıgöl | Buğdayitəpə | Durmuş | Kosalı | Qızılqışlaq |
| Acıkəhriz | Buzxana | Elvar | Köhnə Dəlilər | Qızıltəpə |

---

[1] Müfəssəl dəftərlərdə yalnız vergi ödəyən kişi əhali qeyd olunduğundan, İrəvan əyalətində qeydə alınan 15095 kişidən 14122 ailəli kişini 5-ə (daha çox qəbul edilən rəqəmə görə ailənin sayı orta hesabla 5 nəfərdən hesablanır) vurmaqla ailəlilərin cəminin 70610 nəfər olduğu, bunun üzərinə də 973 subay kişini əlavə etməklə əyalət üzrə cəmi 71583 nəfər qeydə alındığını bilmək olar. Dəftərdə "xanə" adı ilə yalnız gebran (qeyri-müsəlman) əhali qeyd olunduğundan dəftəri tərcümə edən Hüsaməddin Məmmədov onları xanə olaraq deyil, nəfər olaraq göstərmişdir. Müsəlman ailələri isə "büyut", yəni "beyt"in (ərəbcə "ev" deməkdir) cəmi kimi qeyd olunub.

[2] BOA, TTD, No. 901, Revan livasının...; BOA, TTD, No. 898, Revan eyaletinin havi olduğu livalardaki has, timar ve zeametleri havi icmal defteri, v. 1-171;İrəvan əyalətinin icmal..., s. 18.

[3] BOA, TTD, No. 898, Revan eyaletinin havi...., v. 168; İrəvan əyalətinin icmal.., s. 156.

[4] İrəvan əyalətinin icmal..., s. 36-74, 124-126.



| | | | | |
|---|---|---|---|---|
| Adətli | Bülbülabad | Əfşaryerli | Kömür | Qovunlu |
| Adıyaman | Cağatay | Əxi təpəsi | Qalacıq | Qozluca Kəsəngör |
| Ağbulaq | Camalgöl | Ələyəz | Qalağan | Qurd Əmir |
| Ağca | Candərviş | Əliqəmərli | Qamışlı | Quruağac |
| Ağcaqala | Canqutaran | Əmirkənd | Qarabağ | Quşçu |
| Ağcaqışlaq | Cəbrayıllı | Əmiryar | Qarabulaq | Məscidli |
| Ağcalı | Cəlayirli | Ərbatan | Qarabürc | Muğanlı |
| Ağrı | Cəlladlı | Əsaxan | Qaraçubuq | Novruzlu |
| Ağbulaq | Çaker | Göldaş | Qaradəli | Oğlanşahlı |
| Ağırlı | Çaltəpə | Gölkənd | Qarahəsən | Oğuzdaş |
| Ağnadərə | Çanaqçı | Göyçə | Qaraköynək | Öküzbatır |
| Ağyaylıq | Çarıqçılı | Göykənd | Qaraqala | Parçalıgöl |
| Axırlı | Çatıqıran | Güllücə | Qaraqışlaq | Reyhanlı |
| Axsaqlı | Çıraqlı | Güllütop | Qaraqoyunlu | Soyuqbulaq |
| Alacıq | Çiçəkli | Gümrü | Qarança | Soyulan Qoçubəy |
| Almalı | Çinar | Gümürlü | Qarasürü | Söyüdlü |
| Arslanlıtəpə | Çubuqlu | Gümüşcüq | Qaratəpə | Sudələn |
| Aşağı Axarlı | Danaqalası | Günbəzli | Qarauzən | Suluçay |
| Aşağı Alacıq | Daşarx | Güneykənd | Qaravəli | Sürməli |
| Aşağı Göykənd | Daşbulaq | Xalac | Qarğalıq | Şişqara |
| Aşağı Quyuluhasar | Daşqışlaq | Xanabad | Qaşqa | Şiştəpə |
| Atlıxan | Daşlıca | Xoşxəbər | Qatırlı | Tatarlı |





| | | | | |
|---|---|---|---|---|
| Azadkaha | Daşlıqaya | İgidli | Qayalı | Tərli |
| Babalı | Dəlikdaş | İğdır | Qayçı | Uğurbəyli |
| Bağçacıq | Dəliqardaş | İlanlı | Qazançı | Uzunabad |
| Basarkeçər | Dəmirçixan | İnci | Qazançılı | Üçdaş |
| Başbulaq | Dərəbəy | İsti | Qazanlıqdərə | Yaycı |
| Başgöy | Dərəçiçək | Karvansara | Qırxbulaq | Yelqovan |
| Başıböyük | Dərvişlər | Keçid | Qırxdaş | Yuxarı Yalqızağac |
| Batmış | Dərzili | Keçili | Qışlalı | Yuxarı Quyuluhasar |
| Bəydili | Dəvəli | Kəməndbulaq | Qızılbulaq | Yumrudaş |
| Biləkli | Dəyirli | Kəsməztəpə | Qızıldağlı | Vedi və s. |
| Böyük Xas | Dövlətabad | Kiçik Xas | Qızıldaş | |
| Böyük Ördək | Dumanlı | Kiçik Ördək | Qızqalası | |

Bundan başqa bu dəftərlərdə adıçəkilən camaat, əşirət və tayfa adlarının türk dilində olması da İrəvan xanlığının yaranması ərəfəsində onun əhalisinin Azərbaycan türkü olduğunu deməyə əsas verir. Bunu mənbələrin İrəvan xanlığında qeydə aldığı müsəlman-türk tayfalarının adları da təsdiqləyir:

***Cədvəl 2***

| № | tayfanın adı | ailə | nəfər |
|---|---|---|---|
| 1 | Qarapapaqlı | 840 | 4.619 |
| 2 | Böyük Çobanqara | 159 | 988 |
| 3 | Saraşlı | 90 | 541 |
| 4 | Dəmirçili | 31 | 228 |



| № | tayfanın adı | ailə | nəfər |
|---|---|---|---|
| 5 | Kərimbəyli | 55 | 357 |
| 6 | Qafarlı | 98 | 652 |
| 7 | Şeyxlər | 34 | 232 |
| 8 | Qarabağlı | 12 | 68 |
| 9 | Cəfərli (Qafarlılardan) | 16 | 82 |
| 10 | Əli Şərurlu | 12 | 75 |
| 11 | Gödəkli (Kərimbəyli) | 24 | 158 |
| 12 | Cəmilli | 10 | 65 |
| 13 | Çaxırlı | 57 | 308 |
| 14 | Kürkübaşlı | 13 | 72 |
| 15 | Ayrumlu | 631 | 3.484 |
| 16 | Seyidli-Axsaxlı | 311 | 1.754 |
| 17 | Taşanlı | 124 | 565 |
| 18 | Səədli | 160 | 565 |
| 19 | Muğanlı | 200 | 1.100* |
| 20 | Şahdilli (Qacar) | 164 | 959 |
| 21 | Sədərəkli (Qacar) | 149 | 940 |

***Mənbə:*** Шопен. И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852. с.535-537. Bournoutian G.A. The khanate of Erevan under Qajar rule 1795-1828, Mazda Publishers in association with Bibliotheca Persica, Costa Mesa. California and New York, 1992, p. 231.

* Muğanlı tayfasının ümumi sayını C.Bornoutyan hesablamışdır.





"Nadir şahın dəftəri"nə görə İrəvan bölgəsinin Şörəyel distansiyasına daxil olan 109 kəndin adına nəzər saldıqda, onların hamısının Azərbaycan türklərindən ibarət olduğu aydın olur[1].

***Əlavə 1.***

***"Nadir şahın dəftəri"nə görə İrəvan bölgəsinin Şörəyel distansiyasındakı kəndlərin siyahısı***

Şörəyel distansiyası 109 kənddən ibarətdir. Həmin kəndlər bunlardır: 1)Məliki, 2)Quqarlı, 3)Başkənd, 4)Savucbulaq, 5)Tuləkli, 6)Dərəkənd, 7)Boğazkəsən, 8)Yenikənd, 9)Qulucan, 10)Qaraqışlaq, 11)Quru-kənd 12)Yenikənd, 13)Кəndümə, 14)Göyərçinliülya, 15)Кorhəsən, 16)Qaratəpə, 17)Tünkeçi, 18)Şiştəpə, 19)Qaramlı, 20)Sarıqaya, 21)Dərbənd, 22)Əlikli, 23)Qonaqpiran, 24)Yuva, 25)Cəyirli, 26)Üçtəpə, 27)Ortakilsə, 28)Rincame, 29)Duztəpə, 30)Qarakilsə və Tatarlı, 31)Anurdərə, 32)Ağuran-Tatarlı, 33)Gülablı, 34)Hurqala, 35)Qəfəsəli, 36)Qarabulaq-Muğanlı, 37)Bağdacıq, 38)Gümrü, 39)Qapılı, 40)Ərtik, 41)Qıpçaq, 42)Arxvəli, 43)Bəykəndi, 44)Horum, 45)Məscidli, 46)Dəmirdaş, 47)İlanlı, 48)Tağacıq, 49)Yuvamlı, 50)Yeniqalaça, 51)Qabaqtəpə, 52)Gülkəndi, 53)Malkəndi, 54)Günbəzli, 55)Abnus, 56)Xalqverdi, 57)Təpədölək, 58)Duzkəndülya, 59)Şirəli, 60)Yolkeçən, 61)Ağkilsə, 62)Sulukənd, 63)Çiləkli, 64)Şiştəpə, 65)Büzük, 66)Verpilər, 67)Nəcəfbulaq, 68)Mehdiqulu, 69)İsaxanlı, 70)Pukiqıran, 71)Qarahəmzə-

---

[1] Рапорт князя Севарсемидзе ген. Ермолову, от 15 июля 1825 года. №358. Сел. Большой Караклис// Кавказский сборник, т. XXI, Тифлис, 1900, s. 42-43; Мамедова И.Влияние переселенческой политики Российской империи на этноконфессиональную ситуацию Азербайджана в начале XIX века // Вопросы гуманитарных наук. Москва, 2009, № 6 (44), с. 31.



li, 72)Qarakələ, 73)Ağbulaq, 74)Həsənkəndi, 75)Kürkübulaq, 76)Qoşayataq, 77)Kökörən, 78)Qarakilsə, 79)İlanlı-Muğanlı, 80)Ağcakənd, 81) İshaq, 82)Ərmə, 83)Qat, 84)Porsuxlu 85)Xarçəkəsən, 86)Ağbulaq, 87)Cülkəndi, 88)Çobangirməz, 89)Qaraqotur, 90)Qırxdəgiranlar, 91)Nəzərəlikəndi, 92)Qalaça, 93)Xasmənli, 94)Saf, 95)Muncisli, 96)Əlikiçik, 97) Əsradür, 98)Qızılqoç, 99)Şərəbxana, 100)Sərək, 101)Şəkərabad, 102)Əlifəna, 103)Bulaqçox, 104)Xanımkəndi, 105)Göyərçinli, 106)Qaramabad, 107)Başxaraba, 108)Qarabulaq, 109)Çinikənd

*Список Эриванским деревням по журналу Надир-шаха (к рапорту № 358)*

Шурагельская дистанция состоит из 109-ти деревень, а именно: 1) Мелику, 2)Гугерулу, 3)Баш-кент, 4)Савудж-булах, 5)Тулекку, 6)Дерекент, 7)Богаз-кесен, 8)Эин-кент, 9)Кулиджан, 10)Каракишлак, 11)Кури-кент, 12)Эин-кент, 13)Кендуме, 14)Кукерчинлу-улья, 15)Тун-кечи, 16)Кара-тепе, 17)Кор-Асан, 18)Шиш-тепе, 19)Гарамлу, 20)Серикаи, 21)Дербенд, 22)Аликлу, 23)Кунак-Пиран, 24) Юва, 25)Чаирлу, 26)Уч-тепе, 27)Орта-Килиса, 28)Рин-джаме, 29)Дуз-тепе, 30)Кара-Килиса и Татарлу, 31)Анур-дере, 32)Ак-Уран-Татарлу, 33)Гюлаблу, 34)Хур-кала, 35)Кафас-Али, 36)Карабулаг-Муганлу, 37)Багдаджук, 38)Гумри, 39)Капулли, 40)Артик, 41)Кипчак, 42)Арх-вели, 43)Бек-кенти, 44)Горум, 45)Мечетлу, 46)Томар-таш, 47)Иланлу, 48)Тагаджук, 49)Ювамлу, 50)Эин-Калаче, 51)Кабак-тепе, 52)Гюль-кенти, 53)Мал-кенти, 54)Кунбедлу, 55)Абнус, 56)Халкверди, 57)Тепе-долек, 58)Дуз-кент-улья, 59)Ширали, 60)Йол-кечен, 61)Ак-килиса, 62)Суикент, 63)Чилеклу, 64)Шиш-тепе, 65)Пусик, 66)Верпилер, 67)Неджеф-булак, 68)Мехти-Кули, 69)Исаханлу, 70)Пукикрань, 71)Кара-Гемзелу, 72)Кара-Келе,





73)Ак-булак, 74)Асан-кенти, 75)Курку-булак, 76)Коша-Ятак, 77)Кок-Уран, 78)Кара-Килиса, 79)Иланлу-Муганлу, 80)Агдже-кент, 81)Исаак, 82)Арма, 83)Кат, 84)Порсухлу, 85)Харчекесен, 86)Ак-булак, 87)Гюль-кенти, 88)Чобан-Кирмез, 89)Кара-Кутур, 90)Кирх-Декиранлар, 91)Назарали-кенти, 92)Калаче, 93)Хасманлу, 94)Саф, 95)Мунджислу, 96)Али-Кучек, 97)Асрадур, 98)Кизил-Коч, 99)Шарабхана, 100)Серек, 101)Шекерабад, 102)Али-Фена, 103)Булак-чок, 104)Ханум-кенти, 105)Кукерчинлу, 106)Гарамабад, 107)Баш-хараба, 108)Карабулак, 109)Чиникенти.

***Mənbə:*** Кавказский Сборник, т. XX, (Рапорт князя Севарсемидзе ген. Ермолову, 15-го июля 1825 г. № 358. Сел. Большой Караклис). Тифлис, 1900, с.42-43.

Kərim xan Zəndin hakimiyyəti dövründə (1759 – 1779) İrəvan şəhərinin əhalisi 20 min idi[1]. İrəvan Cənubi Qafqazın ən sıx əhalisi olan şəhəri olmuşdur[2]. Burnaşev XVIII əsrin 80-ci illərində İrəvan xanlığında 3 min ev xristian qeydə almış, buradakı müsəlmanların isə sayını göstərməmişdir. Onu da qeyd etmək lazımdır ki, Burnaşevin bu məlumatı şişirdilmiş də ola bilər[3].

---

[1] Perry J.P. Karim Khan Zand (1747-1779). Chicago and London, The University of Chicago Press, 1979, p. 230, table I; bax: İrəvan xanlığı. Rusiya işğalı..., s.80.

[2] Atkin Muriel Russia and Iran 1780-1828, Menneapolis, 1980, p.12.; Bax: İrəvan xanlığı. Rusiya işğalı..., s. 80.

[3] Бурнашев С. Описание областей Адребижанских в Персии и их политического состояния. Курск, 1793, s. 191.



Hüseynqulu xanın hakimiyyəti dövründə İrəvan şəhərində **2400** ailə, İrəvan əyalətində **11** min ailə, ümumilikdə isə İrəvan xanlığında **17** min ailə yaşamışdır[1]. 1826-cı ildə İrəvan xanlığında **12** min ailə tatar (Azərbaycan türkü – İ.M.), **3800** ailə erməni yaşayırdı[2]. M.H.Vəlili İrəvan xanlığında **115000** nəfər[3], Şopen isə İrəvan əyalətinin (keçmiş İrəvan xanlığı – İ.M.) **15** mahalında **115155** nəfər yaşadığını yazırdı[4].

***Cədvəl 3.***

***1832-ci il məlumatına görə keçmiş İrəvan xanlığının əhalisi***

| № | | müsəlmanlar (azərbaycanlılar) | 1827-cı ilə qədər məskunlaşdırılan ermənilər | 1828-ci ildən sonra İrandan köçürülən ermənilər | 1828-ci ildən sonra Osmanlı imperiyasından köçürülən ermənilər | Yekun |
|---|---|---|---|---|---|---|
| 1 | İrəvan | 7331 | 2369 | 1715 | 48 | 11463 |
| 2 | Qırxbulaq | 383 | 1396 | 1043 | 231 | 3053 |
| 3 | Zəngibasar | 5413 | 603 | 2360 | - | 8376 |
| 4 | Gərnibasar | 4176 | 145 | 5359 | - | 9680 |
| 5 | Vedibasar | 3449 | 15 | 1069 | - | 4533 |
| 6 | Şərur | 6510 | - | 1757 | - | 8268 |
| 7 | Sürməli | 4832 | 5892 | 1459 | 1342 | 13525 |

[1] Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху её соединения к Российской империи. СПб., 1852, с. 540-541.

[2] Кавказский сборник, т. XXII, Тифлис, 1901, с. 26.

[3] Məhəmməd Həsən Vəlili. Azərbaycan (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat). Bakı, 1993, s. 22..

[4] Шопен, Исторический...., с. 635-638





| № | | müsəlmanlar (azərbaycanlılar) | 1827-cı ilə qədər məskunlaşdırılan ermənilər | 1828-ci ildən sonra İrandan köçürülən ermənilər | 1828-ci ildən sonra Osmanlı imperiyasından köçürülən ermənilər | Yekun |
|---|---|---|---|---|---|---|
| 8 | Dərəkənd-Parçenis | 3267 | 5 | - | - | 3272 |
| 9 | Səədli | 1004 | - | - | - | 1004 |
| 10 | Talın | 420 | 416 | - | 1144 | 1980 |
| 11 | Seyidli-Axsaklı | 1754 | 28 | - | - | 1782 |
| 12 | Sərdarabad | 1837 | 3214 | 356 | 21 | 5428 |
| 13 | Qərbibasar (Körpübasar) | 2592 | 5290 | 2897 | 176 | 10955 |
| 14 | Aparan | - | 58 | 2018 | 6857 | 8933 |
| 15 | Dərəçiçək | 1300 | 552 | 3535 | 3263 | 8650 |
| 16 | Göycə | 5607 | 90 | - | 8557 | 14254 |
| | **Cəmi** | **49875** | **20073** | **23568** | **21639** | **115155** |

***Mənbə:***
Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852, с.643-648.

Rusiya işğalı ərəfəsində İrəvan xanlığında **49875** nəfər müsəlman, **324** nəfər kürd, **20073** nəfər erməni yaşayırdı[1]. İrəvan xanlığı Rusiyanın bir əyalətinə çevrildikdən dərhal sonra bütün əhalinin dörddə üçünü müsəlmanlar təşkil edirdilər[2].

[1] Шопен, Исторический...., с. 635-638
[2] АКАК, т. VII, док. 438, с. 488- 491.



Keçmiş İrəvan xanlığının ərazisində yaşayan cəmi **14218** ailənin **74,07%**-ni müsəlmanlar, **25,93%**-ni ermənilər təşkil etmişlər. Keçmiş İrəvan xanlığının ərazisində əhalinin milli tərkibi aşağıdakı cədvəldə göstərilmişdir[1]:

***Cədvəl 4.***

***Keçmiş İrəvan xanlığının ərazisində əhalinin milli tərkibi (İ.Şopenə görə, faizlə)***

| Xanlığın ərazisində | | Müsəlmanlar | | Ermənilər | | Cəmi | | Müsəlmanlar | Ermənilər |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | *Ailə* | *Nəfər* | *Ailə* | *Nəfər* | *Ailə* | *Nəfər* | *%* | *%* |
| İrəvan şəhərində | | 1807 | 7331 | 567 | 2369 | 2374 | 9700 | 75,6 | 24,4 |
| ***Mahallar üzrə*** | | | | | | | | | |
| 1 | Qırxbulaq | 81 | 383 | 262 | 1396 | 343 | 1779 | 22,0 | 78,0 |
| 2 | Zəngibasar | 910 | 5413 | 133 | 603 | 1043 | 6016 | 90,0 | 10,0 |
| 3 | Gərnibasar | 753 | 4176 | 34 | 145 | 787 | 4321 | 97,0 | 3,0 |
| 4 | Vedibasar | 574 | 3449 | 2 | 15 | 756 | 3464 | 99,6 | 0,4 |
| 5 | Şərur | 1305 | 6010 | - | - | 1305 | 6510 | 100 | 0 |
| 6 | Sürməli | 709 | 4832 | 935 | 5892 | 1644 | 10724 | 46,0 | 54,0 |
| 7 | Dərəkənd-Parçenis | 589 | 3267 | 1 | 5 | 590 | 3272 | 99,9 | 0,1 |
| 8 | Səədli | 160 | 1004 | - | - | 160 | 1004 | 100 | 0 |
| 9 | Talın | 91 | 420 | 74 | 416 | 165 | 836 | 51,0 | 49,0 |
| 10 | Seyidli-Ağsaqqallı | 311 | 1754 | 6 | 28 | 317 | 1782 | 99,0 | 1,0 |
| 11 | Sərdarabad | 276 | 1837 | 469 | 3214 | 745 | 5051 | 37,0 | 63,0 |
| 12 | Körpübasar | 400 | 2592 | 897 | 5290 | 1297 | 7882 | 33,0 | 67,0 |
| 13 | Abaran | - | - | 11 | 58 | 11 | 58 | 0 | 100 |
| 14 | Dərəçiçək | 231 | 1300 | 92 | 552 | 323 | 1852 | 71,0 | 29,0 |
| 15 | Göyçə | 999 | 5607 | 15 | 90 | 1014 | 5697 | 99,0 | 1,0 |
| **Cəmi mahallar üzrə** | | **9196** | **49875** | **3498** | **20073** | **12874** | **69948** | **71,40** | **28,60** |
| ***Tərəkəmə*** | | | | | | | | | |
| | | 1344 | 7489 | - | - | 1344 | 7489 | | |
| | **Cəmi İrəvan xanlığı üzrə** | **10540** | **57364** | **3498** | **20073** | **14218** | **77437** | **74,07** | **25,93** |

***Mənbə:*** Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб, 1852, с.543-600.

[1] Шопен И.И. Исторический..., с. 643-600.





Rusiya işğalına qədər İrəvan qalasında **800** ev vardı, lakin işğal zamanı onların böyük hissəsi dağıdılmışdı. İrəvan qalasının ətrafında – bayır şəhərdə isə **1736** ev var idi və bunların əksəriyyəti palçıqdan tikilmişdi. 1834-cü ilin kameral təsvirinə görə İrəvan şəhərinin ətrafında yaşayan **2750** ailənin **65,7%** tatar, 3**2,6%** erməni, **1,4%** boşa (qaraçı – İ.M.) idi[1]. Həmin kameral təsvirə görə İrəvan əyalətində yaşayan **22336** ailənin **45,5%** tatarlardan, 15**,8%** rus işğalından əvvəl köçürülən ermənilərdən və **37,1%** İran və Osmanlı dövlətindən köçürülən ermənilərdən, **1,5%** Bəyazid paşalığından buraya köçən yezidi kürdləri və az hissəsi boşa adlanan qaraçılardan ibarət idi[2].

***Cədvəl 5.***

***Dmitri Zubaryevə görə, 1834-cü ildə İrəvan əyalətinin və İrəvan şəhəri ilə ətrafının kameral təsviri***

| Əyalət | tarix | Ailə cəmi | Kişi cəmi, nəfərlə | Tatar | İşğaldan əvvəl köçürülən ermənilər | İşğaldan sonra İran və Türkiyədən köçürülən ermənilər | Bayəzit paşalığından köçürülən yezidi kürdlər | Boşa adlanan qaraçılar |
|---|---|---|---|---|---|---|---|---|
| İrəvan əyaləti | 1834 | 22.336 ailə | 65300 nəfər | 29.690 nəfər kişi | 10.350 nəfər kişi | 24.255 nəfər kişi | 1000 nəfər kişi | az sayda |
| İrəvan şəhəri və ətrafı | 1834 | 2750 ailə | 5900 nəfər kişi | 1807 ailə | 11 ailə | 898 ailə | - | 40 ailə |

***Mənbə***: Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях (ОРВЗ), т.IV. с.270-271, 290-291.

[1] Обозрение Российских владений за Кавказом (ОРВЗ), ч. IV, с. 290-291.
[2] ОРВЗ, ч. IV, с. 270-271.



İrəvan xanlığının müsəlman əhalisinin məcburiyyət üzündən Qacarlar İranı və Osmanlı dövlətinə sığınırdılar. Belə ki, 1804-cü ildə Pəmbəyin 27 kəndinin sakinləri ağaları ilə birlikdə Qars paşalığına qaçmışdılar[1]. Qacar qoşunları Xoyu özlərinə tabe etdikdən sonra İrəvan üzərinə hərəkət etmiş, qurtulmaq istəyən elat və rəiyyətin çoxu Arpaçay və Qarsa yaxın Alaca adlı yerə çəkilmiş, İrəvan xanı və əhalisi hədiyyələr göndərib kömək istəsə də, onların hədiyyə və istəkləri qəbul edilməmişdir[2].

Sərdarabad qalasında **700** ev və xanın sarayı vardı. 1829-cu ildə qaladakı **270** ev ermənilər tərəfindən tutulmuşdu[3].

Sosial tərkibinə görə İrəvan xanlığının əhalisi imtiyazlı ali təbəqə (xan, bəylər, sultanlar, məliklər



***Xəritə 1.*** *İrəvan quberniyasının etnik xəritəsi; xəritə 1902-ci ildə 1886-cı ilə aid kameral sayımının nəticələri əsasında tərtib edilib.*

---

[1] Дубровин Н.Ф. Закавказье от 1803-1806 гг., СПб., 1866, с. 358.
[2] BOA, Hattı-Humayun, nr.6721-F; 6721-C.
[3] ОРВЗ, т. IV, с. 291-292.







**Şəkil 2.** *İrəvan xanı ovda*

və ağalar), din xadimləri (ali ruhanilər - şeyx-ül-islam, müştəhid, qazi, axund, müfti və s.), aşağı təbəqənin nümayəndələri (mollalar, seyidlər, dərvişlər), üləma və müdərrislər və vergi ödəyənlərə[1] bölünürdü. İrəvan şəhərində 85 hacı, 158 məşhədi, 105 kərbəlayı, mahallarda 25 hacı, 77 məşhədi, 239 kərbəlayı, elatlar arasında 6 hacı, 7 məşhədi, 4 kərbalayı, ümumilikdə İrəvan əyalətində 111 hacı, 242 məşhədi və 348 kərbəlayı vardı. İrəvan xanlığında torpaq sahələri bəhrəkər, yarıkər, rəncbər və muzdla verildiyi üçün kəndlilər də eyni adla adlanırdılar[2].

## İrəvan xanlığına ermənilərin köçürülməsi

Çar hökuməti I Pyotrun vəsiyyətini yerinə yetirərək bəhs olunan dövrdə ermənilərin Qacarlar İranı və Osmanlı dövlətinin ərazilərindən Şimali Azərbaycan torpaqlarına

[1] Шопен И.И. Исторический..., с. 693-694.
[2] Шопен И.И. Исторический..., с. 704.
[3] Шопен И.И. Исторический..., с. 988-989.



köçürülməsi siyasətini reallaşdırmağa başladı[1]. General Sisianov Osmanlı dövlətinin ərazisində yaşayan ermənilər İrəvan xanlığının ərazisinə köçürməyə çalışırdı. Ərzurumda yaşayan ermənilər rus qoşunlarının İrəvan xanlığını işğal edəcəyi təqdirdə bu ərazilərə köçəcəklərini bildirmişdilər[2].

İrəvan xanlığının Rusiya tərəfindən işğalına başlanılarkən Azərbaycan türkləri hər vasitə ilə sıxışdırılaraq doğma torpaqlarını tərk etməyə məcbur edilir və onların yerinə ermənilər yerləşdirilirdi. Rus hərb tarixçisi V.Potto yazırdı: "Rus qoşunlarının gəlişinə qədər İrəvan vilayətində 20-yə qədər müxtəlif tatar (Azərbaycan türkü - İ.M.) tayfaları yaşayırdı. İndi isə bütün oturaq əhali Arazın o biri tayına qovulmuşdur. Tərəkəmə tatarları da torpaqlarını tərk etmişdir; az hissəsi Türkiyəyə, çox hissəsi isə İrana getmişdir"[3]. 1827-ci ilin birinci yarısında İrəvan xanlığını 4500 tərəkəmə (elat) müsəlman türk tərk etmişdi. Yerli Azərbaycan türklərindən olan qarapapaqlılardan 800 ailə Arazın o biri sahilində yerləşmiş, bundan əlavə qarapapaqlılardan 100 ailə və ayrımlardan 300 ailə Qarsa, güclü Uluxanlı tayfasından 600 ailə Bəyazidə pənah aparmışd[4]. 1827-ci il ərzində İrəvan xanlığını tərk edən müsəlmanların sayı **8700** ailə (bunlardan **5100**-ü Qacarlar İranına, 3600-ü isə Osmanlı dövlətinə köçmüşdü) idi, əvəzində 10708 erməni ailəsi (bunlardan **6315** erməni

[1] Mahmudov Y. Real tarix və "Böyük Ermənistan" uydurması. Bakı, 2014, s. 8.

[2] АКАК, т.II, Тифлис, 1868,с. 631.

[3] Потто П. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, том III. выпуск I-IV, Санкт-Петербург, 1888, с. 334; Мамедова И.Влияние переселенческой..., s. 32.

[4] АКАК, т. VII, док.512, с. 547.





ailəsi Qacarlar İranından, **4393** erməni ailəsi isə Osmanlı dövlətindən) Qacarlar İranından və Osmanlı dövlətindən İrəvan əyalətinə köçürülmüşdü[1]. Ermənilərin köçürülməsi ilə bağlı olaraq yaranan qarmaqarışıqlıq və sıxışdırılmaların nəticəsində 1828-ci ildə İrəvanın müsəlman əhalisi açıq və ya gizlin şəkildə vətənlərini tərk edib qonşu dövlətlərə qaçırdılar[2]. Bunu qraf Paskeviçin İrəvan əyalətini tərk edən müsəlman köçkünlərin Rusiya hüdudlarına yalnız onun xüsusi icazəsi əsasında qayıda bilmələri haqqında 1828-ci ilin aprelində verdiyi əmr də təsdiq edir[3].

1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələri ermənilərin Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsi üçün zəmin yaratdı. 1828-ci il martın 21-də Rusiya imperiyası tərəfindən "Erməni vilayəti"[4] yaradılandan sonra İrəvan və Naxçıvan xanlıqlarının ərazisində əhalinin say nisbəti belə olmuşdur: **81749** Azərbaycan türkü, **25151** yerli, **35560** Qacarlar İranından köçürülmə erməni, **21666** Osmanlı dövlətindən köçürülmə erməni və **324** yezid. Müharibələrdən sonra "Erməni vilayəti"ndə mövcud olmuş **752** kənddən **521**-i İrəvan əyalətinə aid idi. Müharibə nəticəsində vilayətin ərazisində **359** kənd (o cümlədən İrəvan əyalətində 310 kənd) xaraba qaldı, əhalisi kütləvi qırğınlara

---

[1] Сафаров. Р. Динамика этнического состава населения Иреванской губернии в XIX - нач. XX века (этнополитический аспект) // Xəbərlər (Tarix, fəlsəfə və hüquq seriyası). Bakı, 2004, №4, s. 112.

[2] АКАК, т. VII, док.622, с. 646; док. 623, с. 647.

[3] АКАК, т. VII, док. 438, с. 490.

[4] ОРВЗ, ч. IV, с. 270.



məruz qalaraq, didərgin salındı[1].

Türkmənçay müqaviləsi imzalanandan sonra Qacarlar İranından köçürülən ermənilərə xüsusi torpaq fondu ayrılmadığından onların əksəriyyəti yaylaqda olan kəndlilərin (Azərbaycan türkləri – İ.M.) evlərində yerləşdirildilər[2]. Bu müqaviləyə əsasən İran ərazisində yaşayan ermənilərə bir ilin ərzində öz əmlakları ilə Rusiya hüdudlarına keçmək icazəsi verildiyindən, bu hüquqdan yararlanan **8249** erməni ailəsi 1828-ci ilin martın ortalarından iyunun 1-dək Qacarlar İranından Rusiya tərəfində qalan əyalətlərə köçürüldü[3]. Köçürülən ermənilər İrəvan əyalətinin 119 kəndində məskunlaşdırıldı. Ümumiyyətlə, İrəvan əyalətində 4559 (23568 nəfər) erməni ailəsi yerləşdirildi[4]. İrəvan əyalətinə köçürülən ermənilərin əksəriyyəti Şərur, Dəvəli, Gərniçay, Zəngi, Aparan, Qırxbulaq, Dərəçiçək və Arazın İran tərəfində yerləşən hissəsindəki Saat Çuxurunda (Çuxursəddə), yəni Sürməli mahalında yerləşdirildi. 300-dən artıq sənətkar erməni ailəsi İrəvanda yerli şəhərlilərin evlərində[5], Səlmas və Xoy xanlıqlarından köçürülən 200-ə qədər erməni ailəsi isə Sürməli mahalına yerləşdirildi[6].

---

[1] Шопен. Исторический..., с. 510-518.

[2] Ениколопов И.К. Грибоедов и Восток, Ереван, 1954, с. 135; АКАК, т. VII, док. 618, с. 642-644.

[3] Глинка С. Описание переселения армян Аддербиджанских в пределы России. Москва, 1831, с. 48, 55, 92, 115, 131; Beydilli K. 1828-1829 Osmanlı-rus savaşında Doğu Anadoludan Rusiyaya göçürülen ermeniler. Ankara, 1988, s. 407, 410.

[4] Шопен. Исторический..., с. 635-642.

[5] ОРВЗ, ч. IV, СПб., с. 291.

[6] Ениколопов, Грибоедов и Восток,с. 135-136, 141.





*Cədvəl 6.*

| haradan | tarix 1828 | miqdarı | köçürmə işlərinə rəhbərlik edən şəxs | köçürüldüyü bölgə |
|---|---|---|---|---|
| Marağa | 7-8 mart | | Qamazov və Voynikov | |
| Təbriz | 9-16 mart | | knyaz Arqutinski-Dolqorukov | |
| Qəzvin | | | | |
| Səlmas və Xoy | | 200 ailə | knyaz Arqutinski-Dolqorukov | Sürməli mahalı |
| Urmiya (kəndləri — Camal, Kəhriz, Qulinağa, Svatlı, Lulustoa, Qızılca, Axtəxan, Baxşıkənd, Aqismeyl, Barispe, Savra, Xosrov, Avtavan və Pacuk) | 22-23 mart, 20-21 aprel rus qoşunlarının Urmiyanı tərk etməsi | 20 aprelədək hər iki xanlığı 5000 erməni ailəsi tərk etmişdi | Kollec asessoru Qamazov, knyaz Şalikov və kapitan Şaqubatov | Lazaryev bu zaman köçürülənləri Naxçıvan və İrəvana deyil, Qarabağa yönəltməyə çalışmalarını əmr etmişdi |
| Xoy | 13 aprel, 9 may (mayın 22-də Xoya qayıdan Lazaryev orada qalan ermənilərin bir hissəsini köçürməyə hazırladı və mayın 29-da oranı tərk etdi) | mayın axırında köçürülməli idi | Podporuçik İskritski, knyaz Şalikov və Arqutinski-Dolqorukov | əsasən, İrəvana köçürüldülər, Naxçıvana köçürülənlər ərzaq çatışmazlığı üzündən Lazaryev tərəfindən yol xərcləri verilməklə İrəvan və Qarabağ xanlıqlarına yönəldildi |
| Üzümçü və ətraf kəndləri | | | Knyaz Şalikov | Qarabağa |
| Cənubi Azərbaycandan köçürülən ermənilər | 1828-ci ilin 26 fevralından 11 iyunadək | cəmi 8249 ailə (40 min nəfərdən çox), yerlərdə qalan 1500 ailə istisna olmaqla, köçürülmüşdü. Köçürülənlərdən 300 sənətkar ailəsi İrəvan şəhərində yerli şəhərlilərin evlərində yerləşdirilmişdi. | Polkovnik Lazaryev | İrəvan, Naxçıvan və Qarabağa köçürülməli idilər. İrəvan əyalətinə köçürülən ermənilərin böyük hissəsi ən yaxşı mahallarda: Şərur, Dəvəli, Gərniçay, Zəngi, Abaran, Qırxbulaq, Dərəçiçək və Çuxursəddə, yəni Sürməli mahalında yerləşdirildilər. |



Köçürülənlər, əsasən, keçmiş İrəvan xanlığının Qırxbulaq, Sürməli, Talın, Körpübasar, Abaran, Dərəçiçək və Göyçə mahallarının 129 kəndində yerləşdirildi[1].



***Şəkil 3. 1828-1831-ci illərdə ermənilərin İran və Türkiyədən Azərbaycan torpaqlarına köçürülmə istiqamətləri***

Məhz köçürmələrdən sonra 1829-cu ildə Ağrıdağın ətrafındakı 12 kənddə və Sərdarabad kəndinin yaxınlığındakı adı Məlik Nubarova (sənədi tərtib edən erməni – İ.M.) məlum olmayan kəndlərdə yaşayan **230** ev ilə birlikdə **3711** ev, Üçkilsəyə aid 7 kənddə **690** ev erməni, əvvəllər ermənilərin yaşamadığı Sərdarabad kəndində **800** ev, İrəvan şəhərində **870** ev erməni qeydə alınmışdı[2]. Məlik Nubarovun Sərdarabad kəndində **800** ev ermənininin yaşamasını yazması digər mənbələrdəki rəqəmlərlə uzlaşmır. Belə ki, İ.Şopenə görə

---

[1] Шопен. Исторический..., с. 636-642.

[2] Список армянских селений в Персии, составленный Лазар Мелик-Нубаровым 24 марта 1827 года. Тифлис.// РГВИА, ф. 446, оп. 1, д. 170, л. 2-2 об; Опись армянским городам и селениям находящемуся в Персии учиненная жившим оной около 10 летах Карабахским дворянином Лазаром Мелик Нубаровым в 1829 году // Российский Государственный Военно-Исторический Архив (далее РГВИА), ф. 446, оп. 1, д. 175, л. 2-2 об.





Sərdarabad kəndində erməni əhali yaşamamışdır, lakin Sərdarabad mahalında ümumilikdə **469** erməni ailəsi qeydə alınmışdır[1]. Məlik Nubarov Sərdarabad kəndini nəzərdə tutur, çünki Sərdarabad mahalına daxil olan kəndlər siyahıda ayrıca verilmişdir və onun qarşısında mahal olduğu yazılmamışdır. Əgər hesab etsək ki, Məlik Nubarov Sərdarabad kəndini deyil, mahalı nəzərdə tutmuşdur, onda onun siyahıda ayrıca verdiyi bu mahala daxil olan kəndlərdəki erməni ailələrinin sayını çıxdıqda, onda mahal üzrə olan erməni ailələrinin sayı daha az, yəni **172** edir. Bütün bunlar Məlik Nubarovun verdiyi rəqəmin çox şişirdilmiş olduğunu sübut edir.

Məlik Nubarova görə, İrəvan şəhərində yaşayan erməni ailələrinin sayı (**870** həyət[2]) İ.Şopenin verdiyi rəqəmlərdən (**567** ailə[3]) çoxdur. Türkmənçay müqaviləsindən sonra İrəvan şəhərinə İrandan **366**, Türkiyədən isə **11** erməni ailəsi köçürülmüşdü[4]. İrəvan şəhəri də daxil olmaqla İrəvan əyalətinə məxsus kəndlərdəki ailələrin sayının Məlik Nubarovun[5] verdiyi rəqəmlərlə İ.Şopenin[6] ermənilərin buraya 1828-ci ildə köçürülməsindən əvvəl bu əyalətin kəndlərində yaşayan erməni ailərinin sayı ilə qarşılıqlı müqayisəsi aşağıdakı cədvəldə verilmişdir. Cədvəldə mötərizədə göstərilənlər Şopenin əsərində verilən kəndlərin adıdır:

---

[1] Шопен. Исторический..., с. 579-584.
[2] Список армянских селений..., л. 2
[3] Шопен. Исторический..., с. 543-544.
[4] Шопен. Исторический..., с. 544-546.
[5] Список армянских селений..., л. 2 – 2 об.
[6] Шопен. Исторический..., с. 544-634.



*Cədvəl 7.*

| Şəhər və kəndlərin adı | Evlərin sayı | Ailələrin sayı |
|---|---|---|
| | Məlik Nubarova görə | İ.Şopenə görə |
| Ağrıdağın ətrafında (İrəvan əyalətində): İrəvan şəhəri | 870 | 567 |
| Kanaker (Kanakir) | 110 | 58 |
| Norke (Çölməkçi) | 60 | 80 |
| Norakavat (Noraqovit) | 70 | 28 |
| Ağbaş | 30 | 21 |
| Şenakavat (Şinqovit) | 35 | 11 |
| Çarbağ | 25 | yoxdur |
| Yenkiça (Yengica[1]) | 30 | yoxdur |
| Vetlye[2] | 40 | |
| Akuri (Ark-uri) | 150 | 177 |
| Partsapi (Parataş) | 40 | 8 |
| Göy Qızıl[3] | 30 | |
| Elar (İllar) | 15 | 18 |
| Ptsni (Bcni) | 30 | 24 |
| Arinç (Arinc) | 30 | 33 |
| Paraka (Paraqa) | 60 | 21 |
| Kalara (Kalali) | 55 | 35 |
| Şaparabad (Şərifabad) | 20 | yoxdur |
| Kavakert (Qavar) | 30 | viran kənddir |
| Doxs (Toss) | 25 | 10 |
| Prankanats (Franqanots) | 25 | 24 |
| Əkərək | 10 | yoxdur |

[1] Şopendə bu kənd Naxçıvan əyalətinə aiddir.
[2] Şopendə bu kəndin adı qeyd olunmayıb, ya da başqa ad altında verilib.
[3] Şopende bu kəndin adı qeyd olunmayıb, ya da başqa ad altında verilib.

| | | |
|---|---|---|
| Əkərək | 10 | yoxdur |
| Parbi (Parpi) | 25 | 21 |
| Molla Dursun | 6 | 8 |
| Serksovil (Serqeul) | 5 | yoxdur |
| Saqmasuvank (Saqmosa-vank) | 15 | yoxdur |
| Oqanavank (İoqanna-vank) | 25 | yoxdur |
| Uşi | 5 | yoxdur |
| Əliqoça (Əliqoçaq) | 25 | yoxdur |
| Damcılı | 10 | yoxdur |
| Pyürakan (Piraqyan) | 30 | 15 |
| Şəhriyar | 80 | 85 |
| Qurduqulu | 85 | 22 |
| Sərdarabad[1] | 800 | yoxdur |
| Kob (Kulp) | 150 | 173 |
| Blur | 100 | 69 |
| Avçılar (Evcilər[2]) | 50 | 51 |
| Aletrlu (Aletli[3]) | 40 | 36 |
| Qoxvele[4] | 60 | |
| Sərdarabad yaxınlığındakı adı məlum olmayan kəndlərdə (Sərdarabad qalası, Molla Bəyazid və Keçili) | 230 | 212 |
| Saqatabad (Şaqab) | 120 | viran kənd |
| Keqartavank (Karmirvank) | 60 | 10 |

[1] Şopenə görə Sərdarabad kəndində erməni əhali yaşamayıb, lakin Sərdarabad mahalında ümumilikdə 469 erməni ailəsi qeydə alınıb. Məlik Nubarov Sərdarabad kəndini nəzərdə tutur, çünki Sərdarabad mahalına daxil olan kəndlər siyahıda ayrıca verilmişdir və onun qarşısında mahal olduğu yazılmamışdır.

[2] Şopende Evcilər adı altında 2 kənd qeydə alınıb. Sürməli mahalına daxil olan kənddə 51 ailə, Sərdarabad mahalına aid olanda isə 9 ailə vardı.

[3] Əliətli

[4] Şopendə bu kəndin adı qeyd olunmayıb, ya başqa ad altında verilib.



| | | |
|---|---|---|
| Keqartavank (Karmirvank) | 60 | 10 |
| Üçmüəzzin kilsəsinə məxsus kəndlərdə: Vaqarşabad | 450 | 397 |
| Uşakan | 40 | 82 |
| Əştərək | 70 | 122 |
| Muğni (Moqni) | 20 | 10 |
| Yeqvard | 50 | 30 |
| Ketarkel (Gedərgəl və ya Çayqutara) | 20 | viran kənd |
| Mastar (Masdərə) | 40 | 74 |

Cədvəldən aydın görünür ki, Məlik Nubarovun verdiyi rəqəmlər bir çox hallarda şişirdilmişdir və həqiqəti əks etdirmir. Həmçinin Azərbaycan dilində olan yer adları bir çox hallarda erməni dilinə uyğunlaşdırılmış, dəyişdirilmiş şəkildə verilir. Məsələn, Tanakert-Təpədibi, Mastar-Masdərə, Ketarkel-Gedərgəl, Norke-Çölməkçi və s. Həmçinin Məlik Nubarovun kəndlər üzrə verdiyi rəqəmlərin əksəriyyəti də şişirdilmişdir, ya da həmin kəndlərdə ermənilər yaşamamışlar. Məsələn, Kənəkir, Noraqovit, Yeqvard, Müğni, Vaqarşabad, Karmirvank, Blur, Qurduqulu, Sinqovit, Parataş və s. kəndlərdə erməni ailələrinin sayı çox göstərilmiş, Serksovil, Saqmasuvank, Uşi, Oqanavank, Əliqoça, Damcılı, Əkərək və s. kəndlərdə ermənilər qeydə alınmamışdır.

Mənbə yazırdı: "Pəmbək və Şürəyelin əhalisi rus işğalından sonra dəyişdi. Yerli əhalini (Azərbaycan türklərini - İ.M.) gəlmələr (ermənilər – İ.M.) əvəz etdi, belə ki, yerli əhalinin içərisində oranın əvvəlki sakini olan qoca ermənini nadir halda taparsan. Yeni əhali (ermənilər–İ.M.) buraya





əsasən "Erməni vilayəti"ndən, Ərzurumdan, Qars və Kürdüstandan gəlmişlər, cəmi 4648 ailə, 16 min nəfər kişidən ibarətdirlər. Hazırda Pəmbək distansiyasının sakinləri 2 hissəyə bölünür. Yerli sakinlər və yeni köçürülənlər. Axırıncılar Rusiya-Türkiyə müharibəsindən sonra 1829-cu ildə rus hökumətinin təbəəliyinə keçənlərdir". 1829-cu ilin kameral təsvirinə görə distansiyanın əhalisi – yerli sakinlər (Azərbaycan türkləri - İ.M.) 1536 ailə və yeni gələnlər (ermənilər - İ.M.) 3148 ailədən ibarətdir[1]. 1832-ci ilin kameral təsvirinə görə Pəmbək və Şürəyeldə 169 aysor kişi, 14963 erməni kişi, 963 katolik erməni kişi və 546 tatar (Azərbaycan türkü - İ.M.) kişi qeydə alınmışdı[2]. Distansiyaya ermənilərin köçürülməsindən sonra 1829-cu ildə burada Azərbaycan türkləri 34%, ermənilər isə 66% təşkil edirdisə, artıq 1832-ci ilin məlumatına görə Azərbaycan türklərinin sayı 3,28%-ə qədər azalmış, ermənilərin distansiyaya köçürtmələrin davam etdirilməsi nəticəsində ermənilərin sayı artaraq 95,7%-ə çatmışdır. 1832-ci ilin sonu və 1833-cü ilin əvvəllərində Pəmbək-Şürəyel distansiyasına Tsalk dairəsindən 182 ev erməni köçürüləndən sonra[3] onların sayı 96%-ə çatdırılmışdı. Distansiyada Azərbaycan türklərinin sayının 4%-ə qədər azalması kifayət qədər böyük rəqəmdir və ərazinin qısa bir müddətdə xristianlaşdırılmasının sübutudur.

---

[1] ОРВЗ, ч. II, с. 303-304; Memmedova İ. M. İrevan Bir Türk Hanlığıdır (demografik araştırma) //II uluslararası Kafkasya Tarih Sempozyumu. 15-17 Ekim 2008, Kafkas Üniversitesi. Kars, 2009, s. 231.

[2] ОРВЗ, ч. II, с. 304.

[3] ОРВЗ, ч. II, с. 304.



1832-ci il siyahıyalınmasına görə İrəvan əyalətində 463 kənd müsəlman (Azərbaycan türklərini - İ.M.), 98-i erməni, 65-i isə qarışıq idi. Beləliklə, erməni immiqrantları 126 boşaldılmış, 70 Azərbaycan, 22 qarışıq və 47 erməni kəndində məskunlaşdılar[1]. Hətta köçürmə komissiyasının sədri Qriboyedov belə köçürmə prosesinə mənfi qiymət vermiş və ermənilərin, əsasən, mülkədar və kəndli müsəlmanlarının torpaqlarında yerləşdirilərək və onların burada müsəlmanları sıxışdırdığını qeyd edir[2].

**M.Vladıkinin** *"1827 və 1829-cu il müharibələrindən sonra Erməni vilayəti İran və Türkiyədən gələn ermənilərlə doldu. İrəvan quberniyasında məskunlaşan ermənilərin böyük əksəriyyəti buranın qədim sakinləri olmayıb 1828 və 1829-cu il müharibələrindən sonra Türkiyədən buraya köçürülənlərdir"*[3] yazması ermənilərin İrəvan ərazisinin yerli sakinləri olmadığını bir daha sübut edir. Osmanlı dövlətindən Rusiyaya köçürülən 90 min nəfərə yaxın erməni Bəmbək-Şurəyel, Tsalk, Axalsık və "Erməni vilayəti"ndə yerləşdirilmişdi[4].

1827-1829-cu illərdə çoxlu müsəlman, xüsusilə də Azərbaycan türkləri ruslar tərəfindən sıxışdırılaraq, öz torpaqlarından qovulmuşdular. İrəvan xanlığının əhalisinin əksəriyyətini müsəlmanlar, əsasən də Azərbaycan türkləri

---

[1] Шопен И.И. Исторический..., с. 543-630.

[2] АКАК, т. VII, док.618, с. 642.

[3] Путешествие по Кавказу. Путеводитель и собеседник в путешествии по Кавказу М. Владыкина, ч.I, Москва, Тип. И.И. Родзевича, 1885, с.12, 226; Мамедова И.Влияние переселенческой.., 32-33.

[4] АКАК, т. VII, док. 829-830.





təşkil edirdilər. Rusiya imperiyasının bu əraziləri işğalı zamanı İrəvan xanlığında 30% müsəlman onlar tərəfindən ya məhv edilmiş, ya da qovulmuşdu. Bu müsəlmanların yerinə Qacarlar İranı və Osmanlı imperiyasından köçürülən ermənilər yerləşdirilmişdi[1]. Smirnova görə İrandan 90 min nəfər, Türkiyədən isə təxminən 75 min[2], rəsmi məlumata görə Osmanlı dövlətindən 84 min nəfərdən artıq erməni və yunan[3], Paskeviçə görə 90 mindən artıq[4], K. Bəydilliyə görə isə 100 minədək (20 min ev) erməni köçərək Azərbaycan ərazisində məskunlaşmışdı[5]. Ərzurum vilayətində 10 min erməni ailəsi 1829-ci ildə rusların ardınca Türkiyədən ayrılmış və İrandan gəlmiş olan 40 min erməni ilə birləşmişdi[6].

1831-ci ildə Türkiyə paşalıqlarından 14044 erməni köçürülmüşdü[7]. 1831-ci ilin aprelində Osmanlı dövlətinin vilayətlərindən köçürülmüş xristianlar: erməni və yunanlardan ibarət 14 mindən çox ailəyə (90 min nəfərə qədər) 380 min rubl gümüş pul vəsaiti ayrılmışdı[8].

---

[1] Маккарти Дж. Маккарти К. Тюрки и Армяне (перевод с английского языка), Баку, 1996, с. 34-35; McCarthy Justin. Ölüm ve Sürgün. Osmanlı Müslümanlarının Etnik Kıyımı: 1821-1922, Çeviren Fatma Sarıkaya, 2.Baskı, Ankara, Türk Tarih Kurumu yayınları, 2014, s. 33.

[2] Смирнов. Н.А. Политика России на Кавказе в XVI – XIX веках. Москва, 1958, с. 180.

[3] AKAK, т. VII, док. 830, с. 847.

[4] AKAK, т. VII, док. 829, с. 845

[5] Beydilli K. 1828-1829 Osmanlı-rus savaşında..., s. 407, 410.

[6] McCarthy Justin. Ölüm ve Sürgün...s. 34.

[7] AKAK, т. VII, док. 830, с. 847.

[8] Собрание актов, относящихся к обозрению истории армянского народа. Ч. I, Москва, 1833, с. 61; Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, 1998, s. 40.





***Şəkil 4.*** *Ermənilərin İrandan Şimali Azərbaycan torpaqlarına köçürülməsi. 1828-ci il.*

Əgər 1826-cı ildə İrəvan xanlığında tatarlar (Azərbaycan türkü – İ.M.) 76%, erməni 24%[1] olmuşdusa, artıq 1828 – 1829-cu illərdə ermənilərin Qacarlar İranı və Osmanlı dövlətindən İrəvan əyalətinə köçürülməsindən sonra burada müsəlmanlar (Azərbaycan türkləri – İ.M.) 43.2%, kürdlər 0.3%, yerli ermənilər (bu ermənilər I və II Rusiya – İran müharibələri zamanı buraya köçürülmüşdülər – İ.M.) 17.4%, Qacarlar İranından köçürülən ermənlər 20,4% və Türkiyədən köçürülən ermənilər 18,7% təşkil etmişdir[2]. Yəni iki il ərzində köçürmələrdən sonra Azərbaycan türkləri 76%-dən 43,2-ə düşmüş, ermənilərin sayı isə 24%-dən 56,5% qalxmışdı.

Əgər 1829-cu ildə İrəvan şəhərində tatar (Azərbaycan türklərinin – İ.M.) ailələrin sayı 1807, erməni ailələrinin sayı

[1] Кавказский сборник, т. XXII, Тифлис, 1901, с. 26.
[2] Шопен. Исторический..., с. 635-642; İrəvan xanlığı. Rusiya işğalı.., s. 77.





994 idisə, artıq 1880-ci ildə şəhərdə 1318 ailə tatar, 9509 ailə erməni, 46 ailə rus, 7 ailə gürcü ailəsi qeydə alınmışdı[1]. Bu müqayisəli təhlildən açıq-aşkar görünür ki, 50 il ərzində şəhərdə xristian əhali məhz köçürülmələrin hesabına 8568 ailə artmış, Azərbaycan türklərinin isə sayı isə 489 ailə azalmışdır.

C.Makkarti 1832-ci ilə qədər 45 min erməninin İrəvana gəlib yerləşdiyini, "lakin ermənilərin İrəvanda əhalinin əksəriyyətinin qəti olaraq ələ keçirməsinin XIX əsrin son rübündə, 1855-1856 və 1877-1878-ci illər rus-türk müharibələrindən sonra, ancaq Osmanlı imperiyasından gətirilən ermənilərin bölgəyə yerləşdirilməsi ilə mümkün olduğunu" yazır. C.Makkarti müsəlmanların məhv edilməsi və ya zorla köçürülməsinin, rusların bölgəni İran və Osmanlı imperiyasından gəlmə ermənilər ilə doldurmalarına imkan yaratdığını bildirir[2].

N.N.Şavrov yazırdı: ***"Biz müstəmləkəçilik fəaliyyətimizə Cənubi Qafqazda rusları deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq... 1826-1828-ci illər müharibəsinin qurtarmasından sonrakı iki il ərzində - 1828-ci ildən 1830-cu ilədək Cənubi Qafqaza 40 min İran və 84 min Türkiyə ermənisi köçürdük və onları erməni əhalisinin***

---

[1] Зелинский С.П. Город Эривань // Сборник материалов для описания местностей и племен Кавказа, выпуск первый, Тифлис, 1881, с.40-41; Мамедова И. Влияние переселенческой политики..., с. 29-36.

[2] McCarthy Justin. Ölüm ve Sürgün. Osmanlı Müslümanlarının Etnik Kıyımı: 1821-1922, Çeviren Fatma Sarıkaya, 2.Baskı, Ankara, Türk Tarih Kurumu yayınları, 2014, s. 33-34.



***cüzi olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirdik. Onları, həmçinin Tiflis quberniyasının Borçalı, Axıska və Axalkələk qəzalarında yerləşdirdik. Onların yerləşdirilməsi üçün 200 min desyatindən artıq dövlət torpağı ayrıldı, müsəlmanlardan 2 milyon rubldan artıq məbləğdə xüsusi mülkiyyət torpaqları satın alındı. Yelizavetpol quberniyasıın dağlıq hissəsi və Göyçə gölünün sahili həmin ermənilərlə məskunlaşdırıldı. Nəzərə almaq lazımdır ki, rəsmi köçürülən 124 min nəfər erməni ilə yanaşı, qeyri-rəsmi şəkildə köçənlər də çox olmuşdur və ümumiyyətlə, köçürülənlərin sayı 200 min nəfərdən artıqdır[1]".***

XIX əsrin 90-cı illərində Osmanlı dövlətinə qarşı baş verən erməni qiyamlarının yatırılmasından sonra daha 400 minə yaxın erməni Cənubi Qafqaza – Azərbaycan torpaqlarına köçdü. N.Şavrov yazırdı: ***"XX əsrin əvvəlində Cənubi Qafqazda yaşayan 1.300.000 ermənininin bir milyondan çoxu yerli əhali deyil, onları bura biz köçürüb gətirmişik"[2].***

1886-cı ildə İrəvan quberniyasında əhalinin milli tərkibi köçürmələrin davam etməsinə baxmayaraq, yenə də Azərbaycan türklərinin quberniyada üstünlük təşkil etdiyini göstərir. 1886-cı il siyahıyalınmasına görə İrəvan quberniyasının milli tərkibi:[3]

---

[1] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СПб., 1911, s. 63.

[2] Шавров. Новая..., с. 63.

[3] Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 года, Тифлис, 1893.





*Cədvəl 8.*

| | Cəmi | Tatar | Erməni | Kürd |
|---|---|---|---|---|
| İrəvan quberniyasının ərazisi | 78317 (100% ) | 35091 (44.8% ) | 22096 (28.2% ) | 21130 (27.0% ) |
| Sürməli qəzası | 71066 (100% ) | 34351 (48.3% ) | 22096 (31.1% ) | 14619 (20.6% ) |
| İğdır sahəsi | 30647 (100% ) | 11868 (38.7% ) | 15204 (49.6% ) | 3575 (11.7% ) |
| Daşburun sahəsi | 20520 (100% ) | 13034 (63.5% ) | 2265 (11.0% ) | 5221 (25.4% ) |
| Qulp sahəsi | 19899 (100% ) | 9449 (47.5% ) | 4627 (23.3% ) | 5823 (29.3% ) |

Arxiv sənədi XIX əsrin 90-cı illərində İrəvan quberniyasının kənd və şəhər əhalisinin etnik tərkibinin XIX əsrin əvvəllərinə nisbətən müqayisədə ermənilərin xeyrinə dəyişdiyini görməyə imkan yaradır[1]:

*Cədvəl 9.*

***XIX əsrin 90-cı illərində İrəvan quberniyasının kənd və şəhər əhalisi. (Milli tərkib və sayına görə (nəfərlə))***

| Qəzalar: Kənd əhalisi | Tatar | Kürd | Yunan | Aysor | Mordva | Rus | Erməni | Digərləri |
|---|---|---|---|---|---|---|---|---|
| İrəvan | 52880 | 8129 | - | 1381 | - | - | 36426 | - |

[1] Карта Эриванской губернии с показанием границ уездов, полицейских участков и селских общин, составленный под. Ред. Кондратенко // Российский Государственный Военно-Исторический архив (РГВИА), ф. 414, оп. 1, д. 307, л. 8; Memmedova İ.M. "19.Yüzyılın 80-90'lı Yıllarında Güney Kafkas'yanın Etnografik Haritası (Kars ve diger bölgeler)". İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi, 2012, cilt 1, sayı: 2, s. 87-99.



| Qəzalar: Kənd əhalisi | Tatar | Kürd | Yunan | Aysor | Mordva | Rus | Erməni | Di-gərlə-ri |
|---|---|---|---|---|---|---|---|---|
| Aleksan-dropol | 4580 | 3739 | 587 | - | - | 957 | 101634 | - |
| Naxçı-van | 39222 | 473 | - | - | - | 165 | 33018 | - |
| Yeni Bayəzit | 29523 | 2405 | 113 | - | 143 | 2567 | 61367 | - |
| Sürməli | 34351 | 14619 | - | - | - | - | 22096 | - |
| Şərur-Dərələyəz | 43566 | 880 | - | 232 | - | - | 17094 | - |
| Üçmüəz-zin | 30203 | 6195 | - | 69 | - | - | 64124 | - |
| Şəhər əhalisi | - | - | - | - | - | - | | - |
| İrəvan | 7228 | - | | - | - | 313 | 7142 | 55 |
| Aleksan-dropol | 881 | - | 321 | - | - | 65 | 22921 | 42 |
| Naxçıvan | 4836 | - | - | - | - | - | 2041 | 82 |
| Ordubad | 3787 | | - | - | - | - | 412 | - |
| Yeni Bayəzit | - | 38 | - | - | - | - | 7426 | 24 |
| **Cəmi** | **251057** | **36478** | **1021** | **1682** | **143** | **4067** | **375701** | **203** |
| %-lə | 37,5% | 5,4% | 0,2% | 0,3% | 0,02% | 0,6% | 56% | 0,03% |





1909-cu ildə İrəvan-Naxçıvan rayonunun etnik tərkibinin 54,2 %-ni şiə tatarlar (Azərbaycan türkləri – İ.M.), 42,9 %-ni ermənilər, yalnız 2,3 %-ni ruslar təşkil edirdi[1].

## İrəvan xanlığı əhalisinin məşğuliyyəti

İrəvan xanı Hüseynqulu xan Qacarın hakimiyyəti dövründə əhali, əsasən, buğda, arpa, darı, çəltik, gənəgərçək, küncüt, kətan toxumu, tütün və pambıq əkirdi[2].

***Cədvəl 10.***

***Hüseynqulu xan Qacarın hakimiyyəti dövründə becərilən kənd təsərrüfatı bitkiləri***

| adı | miqdarı (xalvarla) | illik gəlir |
|---|---|---|
| buğda | 34.185 | 830.000 gümüş rubl |
| arpa | 11.500 | |
| darı | 3.200 | |
| çəltik | 18.400 | |
| gənəgərçək | 40 | |
| küncüt | 24 | |
| kətan toxumu | 12 | |
| tütün | 60 | |
| pambıq | 2.100 | |

***Mənbə:***

1. ОРВЗ (Составил Лекгобытов). ч.IV. СПб., 1836, с.280-281.

[1] Военный обзор Персидского передового театра (Азербайджан, Гилян и Мазандерян) и краткие описания обрекогносцированных путей этого района. Сост. в Развед. отд-нии Штаба Кавк. воен. округа Ген. штаба кап. Корсун, Тифлис, 1909, s. 307.

[2] ОРВЗ, ч. IV, с.280-281.



İrəvan xanlığında əhalinin əsas məşğuliyyət sahələrindən biri əkinçilik idi. Kənd təsərrüfatı məhsullarının içində buğda, arpa, çəltik istehsalı başlıca yer tuturdu. Qırxbulaq, Sərdarabad, Şörəyel, Pəmbək taxıl, Zəngibasar və Şərur isə çəltik istehsalına görə məşhur idi[1]. İrəvan xanlığında Zəngibasar, Sərdarabad və Sürməli mahalları pambıq istehsalına görə fərqlənirdi. İrəvan xanlığında əhali tütün istehsalı, xanlığın dağlıq və aran bölgələrində kətan, aran hissəsində küncüt istehsalı ilə məşğul olurdu[2]. İrəvan xanlığında Ağrı vadisində yaylaq-qışlaq maldarlığı inkişaf etmişdi və xanlıqda maldarlardan alınan vergi hesabına böyük gəlir əldə edilirdi[3]. XVIII əsrin ikinci yarısında İrəvan xanlığında maldarlıq ilə məşğul olan əhalinin bir hissəsi bazarda satmaq üçün yağ, pendir və digər süd məhsullarını istehsal edirdi. Heyvandarlığın başqa sahələrinə nisbətən qoyunçuluq daha çox inkişaf etmişdi. Bundan başqa İrəvan xanlığında əhali gön-dəri məmulatının istehsalı ilə də məşğul olurdu[4].

***Cədvəl 11.***

| **atçılıq** | **iri mal-qara** | **qoyun və keçi** | **dəvə** | **uzun-qulaq** | **donuz** |
|---|---|---|---|---|---|
| Ən yaxşısı qarapapaq və kürdlərdə 20 min | 100 minədək | 290 minədək | 400-dək | 5 minədək | cüzi miqdarda (Üçkilsədə) |

[1] Шопен. Исторический..., с. 738-740; ОРВЗ, ч. IV, с. 278.

[2] Шопен. Исторический..., с. 741-745; ОРВЗ, ч. IV, с. 278-279.

[3] Богданова Н.Г. К вопросу о феодальной эксплуатации кочевников в Закавказском крае в первой трети XIX в. // Исторический архив. т.II, М., 1939, с.235.

[4] Шопен И.И. Исторический..., с. 856-857.





İrəvan xanlığının ərazisində əhali bir neçə növ üzüm yetişdirir, çoxlu üzüm emal edir, ondan sirkə, mövüc, kişmiş, doşab, şərab hazırlayır və ixrac edirdi.

*Cədvəl 12.*

***İrəvan xanlığında bağçılıq***

| bağ bitkisinin adı | harada | qiyməti | cəmi |
|---|---|---|---|
| ərik, şaftalı, xurma, heyva, üzüm, nar, tut | | | |
| ərik — təzəsi | | kisəsi 1 rubla | |
| ərik — qurusu | | batmanı - 40 qəpik gümüşə | |
| buğda ilə mübadilə edilən ərik | | 1 batman quru ərik 4 batman buğdaya | 5000 bağ |
| üzüm bağları | Çölməkçi-110 Kanakir-120 Əştərək-132; Parakər və Şarabad-46 Üçkilsə-107 Uşaqan-46 və 34 müxtəlif kiçik bağlar | | |

***Mənbə:***

1. ОРВЗ (Составил Лекгобытов). ч.IV. СПб., 1836, с.281-282.

İrəvanda bağçılıq qədim tarixə malik idi. Şəhərətrafı kəndlərdə və şəhərlərdə müxtəlif növ bağ-bostan bitkiləri yetişdirilirdi[1].

[1] Бах: Qriqoryan V.R. İrəvan xanlığı XVIII əsrin sonlarında (1780-1800), İrəvan, 1958, s.42.



***Cədvəl 13.***

***İrəvan xanlığında qeydə alınmış bağlar və onların gəliri***

| | sayı | ölçü vahidi | Üzüm bağlarının gəliri pul vahidi | | meyvə bağlarının gəliri pul vahidi | |
|---|---|---|---|---|---|---|
| İrəvan şəhəri | 1.473 | 1.233 | 2.608 xalvar | 34 batman | 2.982 xalvar | 3 batman |
| Qırxbulaq | 259 | 172 | 390 | - | 150 | - |
| Zəngibasar | 199 | 38 | 80 | - | 115 | - |
| Gərnibasar | 54 | 36 | 1 | - | 68 | 50 |
| Vedibasar | 76 | 15 | - | - | 19 | 50 |
| Şərur | 284 | 78 | 2 | - | 320 | - |
| Sürməli | 375 | 110 | 95 | - | 279 | - |
| Dərəkənd Parçenis | 96 | 21 | 10 | - | 76 | 20 |
| Saatlı | 80 | 16 | 9 | 50 | 72 | 60 |
| Talın | 4 | 4 | - | - | - | - |
| Seyidli-Axsaxlı | 9 | 2 | - | - | 3 | - |
| Sərdarabad | 62 | 34 | 160 | - | 245 | - |

***Mənbə:***

1. Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху её присоединения к Российской империи. СПб., 1852, с.747.

İrəvan xanlığında Zəngəzur, Vedibasar, Göyçə, Calaloğlu, Gümrü və digər bölgələrdə ipəkçilik əsas məşğuliyyət növü idi. Göyçə, Gümrü, Calaloğlu və başqa bölgələrdə əhali arıçılıqla məşğul olurdu[1].

[1] Шопен. Исторический..., с. 853.





İrəvan xanlığında əhali toxuculuq və dulusçuluq ilə də məşğul olurdu. Lori, Pəmbək, Gümrü, eləcə də Zəngəzurun dağlıq hissəsinin qoyunçuluqla məşğul olan əhalisi, əsasən, xalçaçılıqla məşğul olur, qış aylarında özləri üçün corab, kətan parça toxuyurdular. Xanlıqda dulusçuluq məmulatı yerli xammala əsaslanırdı. İrəvan yaxınlığındakı Çölməkçi kəndində dulusçuluq (o cümlədən çölmək istehsalı) əsas məşğuliyyət sahəsi idi. İrəvan xanlığında sənaye istehsalı da inkişafa başlamışdı. Ölkədə İrəvan şəhəri yaxınlığında yerləşən Göğb (Qoğb)duz mədənində bir neçə emalatxanadan başqa hələlik digər sənaye müəssisəsi yox idi[1].



***Şəkil 5.*** *İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra Goğb (Qoğb) duz dağının və duz mədənlərinin görünüşü*

[1] Шопен. Исторический..., с. 851-862; ОРВЗ, т. 4, с. 282-283; Взгляд на армянскую область из путевых записок Н.Нефедьева, СПб., 1839, с.72.



Sərdarabad qalasında əhali əkinçilik, maldarlıq, kiçik ticarət, bez toxuculuğu, dəmirçilik, dərzilik və digər sənət sahələri ilə məşğul olurdular[1]. İrəvan əyalətində əhalinin əsasən qırmızı boya (qırmız) və duz istehsalı, həmçinin taxılçılıq, bağçılıq və şərabçılıqla məşğul olurdu. Ticarət İrəvan xanının əlində idi və əsasən, pambıq, düyü, buğda, arpa və duzdan ibarət idi[2].



***Şəkil 6.*** Köhnə İrəvan bazarı. 1905-ci ilə aid foto

[1] ОРВЗ, ч. IV, с. 291-292.

[2] Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. т.I, (кн.II-III), СПб., 1871, с. 327.





## İrəvan xanlarının əhali siyasəti

Azərbaycanın digər xanlıqlarında olduğu kimi İrəvan xanlarının əsas vəzifəsi xanlığın sərhədlərini düşməndən qorumaq, ərazisini genişləndirmək, əhalisinin sayının artırılması olmuşdur. Hər hansı bir xanlığın ərazisində vergi ödəyən əhalinin çox olması xanın gəlirinin artmasına səbəb olurdu. Bu səbəbdən də İrəvan xanları digər xanlıqların ərazisində yaşayan tayfaları öz mülklərində məskunlaşdırmağa çalışırdı. Xanlığın ərazisində əhalinin çox olması müharibə zamanı daha çox silahlı dəstə toplamağa imkan yaradırdı. İrəvan xanlarının əhali siyasətini Azərbaycanın digər xanlarından fərqləndirən cəhəti birbaşa pulla yığılan vergilərin hər il əkinçi cəmiyyətlərindən, şəhər əhalisindən, tərəkəmə elatlardan və erməni din xadimlərindən toplanması idi. İrəvan xanları xanlığın əhalisindən birbaşa alınan vergiləri cəmiyyətlər üzrə bölürdülər. İrəvan xanlığında olan səkkiz cəmiyyətin hər birində vergilər onların vəziyyətindən asılı olaraq təyin edilirdi[1]. İrəvan xanının əhali siyasətini fərqləndirən digər cəhət onun binaçı vergisini ən yaxın iki köməkçisi vasitəsilə toplamasına baxmayaraq, şəxsən hər bir kəndin vəziyyəti, torpağın münbitliyi, suya olan ehtiyacı ilə maraqlanması və kəndlərdə binaçı vergisini verməyə qadir olan həyətləri müəyyən etməsidir. İrəvan xanı Hüseynqulu xanın əhali siyasətini digər xanlardan fərqləndirən cəhət onun təsərrüfatı gözəl bildiyinə görə xanlığını bir hakim kimi deyil, daha çox bir mülkədar kimi idarə etməsidir.

[1] Шопен И.И. Исторический..., с. 967-972.



İrəvan xanı hər bir kəndin yerli mövqeyindən asılı olaraq gətirdiyi gəliri, otlaqların dağlara yaxın və uzaqlığından asılı olaraq şirəli olub olmamasını təyin edə bilirdi. Hüseynqulu xan hər bir kəndin şəhərə və əsas ticarət yollarına bitişik olmasını, istehsal olunan yerli məhsulun keyfiyyətini, onun az və ya daha çox fayda ilə satıla biləcəyini, hər kənddə maldarlığın vəziyyətini nəzərə alırdı[1]. Digər fərqli cəhət isə İrəvan xanlığında kəndlilərin öz məsələləri ilə bağlı birbaşa Hüseynqulu xana müraciət edə bilmələri idi[2].

Sonuncu İrəvan xanı Hüseynqulu xan başqa xanlıqlardan olan qaçqın kəndliləri öz torpaqlarında məskunlaşdırmağa şərait yaradır, onlara əkin istehsal alətləri və qoşqu heyvanları verməklə müəyyən



***Şəkil 7.*** *İrəvan xanı Hüseynqulu xan Qacar (1806-1827)*

[1] Шопен. Исторический..., с. 969 – 970.

[2] Memmedova İ.M. İrevan hanlarının nüfus politikası // XVI. Turk Tarıh kongresi. 20-24 eylül 2010, Ankara, s. 111.





müddətə onları vergidən azad edirdi[1]. İrəvan xanlığında qarapapaq, ayrımlı, uluxanlı, böyük çobanqara, səədli, seyidli-axsaqlı, muğanlı və s. tayfalara xanların diqqəti böyük idi. İrəvan xanlarının hərbi hissələrində qarapapaq süvariləri xüsusi çəkiyə malik idi.

Bəzən xanlar döyüşkən tayfaları xanlığın ərazisinə köçürürdülər. İrəvan xanının qardaşı Həsən xan 400 ailəyə qədər Ayrımlı tayfasını xanlığa köçürmüşdü. Rus məmurları qarapapaqlıların İrəvan xanlığının ərazisində yerləşmələrinə maneə törətmək üçün onların ağalarına Rusiya mülklərinə köçməyi təklif etmişdilər[2].

Hərbi əməliyyatlar zamanı İrəvan xanları əhalinin təhlükəsizliyini təmin etmək üçün onların bir hissəsini qala daxilinə, digər hissəsini isə daha etibarlı ərazilərə köçürürdülər. 1826-cı ilin iyul ayında Şörəyelə daxil olan İrəvan xanı Abaran qalasını ruslardan təmizlədikdən sonra qala əhalisini İrəvana, Gümrünün bəzi kəndlərinin əhalisini isə İran tərəfinə köçürmüşdü[3]. 1827-ci ilin aprelində İrəvanın bütün əhalisi Arazdan cənuba köçürülmüş, şəhər əhalisi öz yerlərini tərk edib qalada yerləşmişdi. İrəvan şəhərindən və İrəvan qalasının ətraf bölgələrindən qalaya 18 min insan köçürülmüşdü[4].

---

[1] Шопен. Исторический..., с. 971-972; Gürcüstan Respublikası Mərkəzi Dövlət Tarix arxivi, f. 3, sənəd 52, v. 10; Əliyev F., Həsənov U, İrəvan xanlığı, s.32 – 33.

[2] АКАК, т. IV, Тифлис, 1870, dok. 1111-1112, с. 725.

[3] Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındaki Münasipetlere Dair Arşiv Belgeleri, c. I, Ankara, 1992. s.111 – 112; İrəvan xanlığı. Rusiya işğalı..., s.328.

[4] Шербатов М. Генерал-фельдмаршал князь Паскевич. Его жизнь и деятельность, т.II, СПб., 1890, с. 231, 321-322.



İrəvan ərazisində məskunlaşan azsaylı xristian əhalisinə münasibətdə xanlar gah müəyyən güzəştlər, gah da cəzalandırma siyasəti yeridirdilər. Xristian əhaliyə qarşı cəzalandırma onların düşmən hücumu zamanı xanlara xəyanəti ilə bağlı idi. 1827-ci ildə İrəvan qalasının müdafiəsi zamanı ermənilər ruslar ilə əlaqəyə girərək qalanı müdafiəçilərinin mövqeyi, sayı, topların yeri və s. kimi hərbi sirləri onlara verirdilər. Bundan başqa bəzi torpaqların arxasında dayanmış ermənilər mərmiləri ruslara deyil, qaladakı müsəlmanlara atırdılar[1].

İrəvan xanlığının əhalisi Azərbaycan türklərindən ibarət olmuş, hətta xanlığın ərazisinə erməniləri köçürülməsindən sonra belə Azərbaycan türkləri burada üstünlük təşkil etmişlər. Məhz Rusiya imperiyasının qədim Azərbaycan torpağı olan İrəvanın ərazisini xristianlaşdırmaq siyasəti, daha sonralar isə Sovet rejiminin Azərbaycana qarşı münasibətdə apardığı ədalətsiz siyasətin, günümüzdə isə Rusiya Federasiyası, ABŞ və qərb dövlətlərinin Ermənistanı himayə etmələrinin nəticəsi olaraq əzəli torpağımız olan İrəvan ərazisində hal-hazırda Ermənistan Respublikası yerləşir və onların Azərbaycana təcavüzü nəticəsində Azərbaycan Respublikasının ərazisinin 20-% işğal altındadır.

[1] СМОМПК, вып.IV, Тифлис, 1884, с.36; Ениколопов И. Грибоедов..., с.86.





***Xəritə 2.** İşğal olunmuş Cənubi Qafqazın yol xəritəsində keçmiş İrəvan xanlığı*

İrəvan
XANLIĞI

# İrəvan xanlığının əhalisi

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi “İrəvan xanlığının tarixinə dair 4 adda broşürün nəşr olunması” layihəsi çərçivəsində Azərbaycan Tarixçiləri İctimai Birliyi tərəfindən nəşr edilmişdir.

**Azərbaycan Tarixçiləri İctimai Birliyi**
AZ1065, Bakı., B.Bağırova küç., 7, m.29.
E-mail: mxanbabayeva@mail.ru. Mob. (055) 353-02-33
Azərbaycan Milli Elmlər Akademiyası
Tarix İnstitutunun mətbəəsində çap edilmişdir.
Bakı şəh., H.Cavid pros., 125.